# A THEROTICAL AND EMPIRICAL ANALYSIS OF GENDER EXPERTISE OF SOME SECONDARY SCHOOL TEXTBOOKS

**Ilaha Iskanderova**

Baku State University, doctoral student
E-mail: ilaheisgenderova.1000@gmail.com
https://orcid.org/0009-0004-6899-4264

**Abstract.** The article deals with the issue of promoting gender equality in textbooks and gender problems. It is noted that while textbooks are not the only learning resource, they have considerable influence given that they are at the center of the curriculum, educational policy and practice, theory and practice, government documents, as well as private initiatives. In the textbooks applied in the educational system of Azerbaijan, along with a number of positive cases, there are moments where gender inequality is observed in tasks and images that promote various gender stereotypes. It is noted in the article that from this point of view, the development of gender equality in high school textbooks will help to eliminate the problems in a number of areas in the education and training system.

**Keywords:** men and women, gender equality, gender inequality, high school textbooks, assessment of gender orientation in textbooks, gender stereotypes.

**DOI:** 10.30546/2709-2488.2.2023.53
**To cite this article:** Iskanderova I. (2023). A therotical and empirical analysis of gender expertise of some secondary school textbooks. *Journal of Preschool and Primary Education*, Vol. 243, Issue II, pp. 53-65.
**Article history:** received – 19.04.2023; accepted – 08.05.2023.

# BƏZİ ORTA MƏKTƏB DƏRSLİKLƏRİNİN GENDER EKSPERTİZASININ NƏZƏRİ VƏ TƏCRÜBİ TƏHLİLİ

**İlahə İsgəndərova**

Bakı Dövlət Universiteti, doktorant
E-mail: ilaheisgenderova.1000@gmail.com
https://orcid.org/0009-0004-6899-4264

**Annotasiya.** Məqalədə orta məktəb dərsliklərində yer alan materiallarda gender bərabərliyinin təbliğ edilməsi məsələləri, gender problemləri araşdırılır. Qeyd olunur ki, dərsliklər yeganə öyrənmə resursu olmasa da, onların kurikulum, təhsil siyasəti və praktika, nəzəriyyə və tətbiq, hökumət sənədləri ilə yanaşı, özəl təşəbbüslərin də mərkəzində dayandığını nəzərə alsaq, kifayət qədər təsir qüvvəsinə malikdir. Azərbaycanın təhsil sistemində tətbiq olunan dərsliklərdə bir sıra müsbət hallarla yanaşı, müxtəlif gender stereotiplərini təşviq edən tapşırıq və şəkillərdə gender bərarbərsizliyinin müşahidə edildiyi məqamlar mövcuddur. Məqalədə qeyd olunur ki, məhz bu baxımdan orta məktəb dərsliklərində gender bərabərliyi üzrə mövzuların işlənməsi tərbiyə və təhsil sistemində bir sıra sahələrdə olan problemlərin aradan qaldırılmasına kömək edəcəkdir.

**Açar sözlər:** kişilər və qadınlar, gender bərabərliyi, gender bərabərsizliyi, orta məktəb dərslikləri, dərsliklərdə gender yönümlülüyünün qiymətləndirilməsi, gender stereotipləri.

**DOI:** 10.30546/2709-2488.2.2023.53
**Məqaləyə istinad:** İsgəndərova İ. (2023). Bəzi orta məktəb dərsliklərinin gender ekspertizasının nəzəri və təcrübi təhlili. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 2 (243), səh. 53-65.
**Məqalə tarixçəsi:** göndərilib – 19.04.2023; qəbul edilib – 08.05.2023.

## Giriş / Introduction

Gender bərabərliyi problemi öz tarixi kökləri ilə insan cəmiyyətinin inkişafının ən qədim dövrlərinə gedib çıxır. Cəmiyyətdə gender bərabərliyi haqqında fikirlər ziddiyyətlidir. Məhz bu baxımdan gender bərabərliyinin pedaqoji aspektdən işlənməsi tərbiyə və təhsil sahəsində bir sıra məsələlərdə olan problemlərin aradan qaldırılmasına kömək etməklə yanaşı, cəmiyyət daxilində demokratik dəyərlərə söykənən qadın və kişi münasibətlərinin bərqərar olmasına gətirib çıxara bilər. Kişilər və qadınlar arasında mədəni münasibətlərin və ünsiyyətin yaranmasına hesablanmış gender bərabərliyinin pedaqoji aspektdə tətbiqi dərsliklərin gender bərabərliyi problemlərinə cavab verməsi zərurətini dövrün tələblərindən biri kimi ortaya qoyur. Belə ki, dərsliklər əksər ölkələrdə yeganə öyrənmə resursu olmasa da, kurikulum, təhsil siyasəti və praktika, nəzəriyyə və tətbiq, hökumət səyləri ilə yanaşı özəl təşəbbüsün mərkəzində dayandıqlarından, onlar kifayət qədər təsirli olmağa davam edir və həm praktik, həm də simvolik əhəmiyyət daşıyır. H.Nəzirova, A.Məhərrəmova, Z.Əmiraslanova belə hesab edirlər: "Təhsilalanlar dərs vaxtının 80–95 faizini dərsliklərdən istifadə etməklə keçirirlər. Məktəb dərsliklərində ayrı-seçkiliklə təsvir olunan fərqlər uşaqların həyata baxışlarına, motivasiyalarına və karyera seçimlərinə təsir göstərir " [Nəzirova N., Məhərrəmova A., Əmiraslanova Z., 2015]. Onlar təhsil proqramlarında, tədris-təlim materiallarında və ümumiyyətlə, məktəb mühitində gender bərabərliyinin təmin edilməsinin zəruri olduğunu hesab edirlər. 2015-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Məktəbli Dərslik Layihələrinin Qiymətləndirilməsi Şurası əsas qiymətləndirmə meyarlarına uyğun olaraq, o cümlədən, müxtəlif fənlər üzrə dərslik layihələrinin gender ekspertizasını təşkil etdi. Bu təşəbbüs məktəb təhsilində gender yanaşmasının tətbiqində ilk addımlardan biri oldu və nəticədə əldə olunan materiallar bu tədqiqatın mövzusu idi. Məqsəd məktəb dərsliklərinin məzmununun təhlili yolu ilə gender stereotiplərinin müəyyən edilməsi idi.

2020-ci ildə BMT-nin Əhali Fondunun (UNFPA) mütəxəssisləri ölkədə ümumtəhsil müəssisələrində tətbiq edilən bəzi dərs vəsaitlərini nəzərdən keçirib və kitablara ixtiyari və ya qeyri-ixtiyari şəkildə daxil edilən, gender ayrı-seçkiliyinə qarşı bir sıra düzəlişlər təklif ediblər. Bundan əlavə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 fevral, 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020–2025-ci illər üçün Tədbirlər Planı"nda ümumi təhsil pilləsinin məzmununun gender bərabərliyinin təşviqi baxımından nəzərdən keçirilməsi və təhsil müəssisələrinin pedaqoji heyəti üçün tədris prosesində gender bərabərliyinin qorunması məqsədi ilə təlimlərin təşkili kimi fəaliyyətlər öz əksini tapıb. Əlavə olaraq, Qadınlara qarşı

ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin (CEDAW) və Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitənin (CRPD) Azərbaycan üzrə Yekun Müşahidələrinin Seçmə Toplusunda diskriminasiyaya səbəb olan gender stereotiplərinin tədris-təlim materiallarından çıxarılması tövsiyə edilib.

## Əsas hissə / Main part

Genderyönümlü yanaşmanın Azərbaycan təhsil sisteminə tətbiqi zəruridir. 2021-ci ilin noyabr ayında BMT-nin Əhali Fondu (UNFPA) və Avropa İttifaqının dəstəyi ilə Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən "Ümumi təhsildə genderyönümlü yanaşmanın təşviqi" adlı layihənin icrasına başlanıldı. Ümumi təhsil pilləsinin məzmununda və tədris-təlim prosesində gender bərabərliyinin təmin edilməsini hədəfləyən layihə çərçivəsində ARTİ tərəfindən hazırlanan və hazırda ümumi təhsil pilləsində tətbiq olunan bir sıra dərslik komplektlərinin gender probleminə həssaslıq prizmasından təhlili aparıldı. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD, 2011) hesab edir ki, gender balansı üçün təhsil siyasətində erkən müdaxilələr ən yaxşı nəticə göstərir. Bunu və hazırda bəzi dərslik vəsaitlərinin pilot fazasında olmasını nəzərə alaraq, təhlil məqsədi ilə I–V siniflərin dərsikləri seçilmişdir. Təhlilin aparılmasında əsas məqsəd həmin dərsliklər üzrə tədris və təlim materiallarında gender bərabərliyinin təmin edilib-edilmədiyini müəyyənləşdirmək və buna maneə yaradan məqamları nəzərdən keçirməkdir.

Məzmunda genderyönümlülüyün qiymətləndirilməsi UNESCO-nun müvafiq bələdçiləri (UNESCO, 2010; UNESCO, 2015) əsasında aparılıb. Ümumilikdə 7 dərslik komplekti (12 dərslik, 12 iş dəftəri və 10 metodik vəsait) gender bərabərliyinin təşviqi baxımından nəzərdən keçirilib:

1. III sinif, "Azərbaycan dili" dərsliyi (tədris dili);
2. III sinif, "Azərbaycan dili" dərsliyi (dövlət dili);
3. IV sinif, "Azərbaycan dili" dərsliyi (tədris dili);
4. IV sinif, "Azərbaycan dili" dərsliyi (dövlət dili);
5. III sinif, "Riyaziyyat" dərsliyi;
6. IV sinif, "Riyaziyyat" dərsliyi;
7. V sinif, "Təbiət" dərsliyi.

Qiymətləndirmə zamanı dərslik komplektlərində yer alan həm yazılı, həm də təsviri nümunələr gender, peşə, şəxsiyyət, ailədaxili və xarici, ata və ananın rolu kimi istiqamətlər üzrə təhlil edilib. Buraya həm qadın, həm də kişi obrazlarının müsbət, mənfi rollarda olmasının, eləcə də sayının nisbəti, hər iki cinsin örnək model kimi təsviri, müxtəlif cinsdən olan müəlliflərin əsərlərinin dərsliklərdə bərabər sayda əks olunması, geyim və rəng stereotiplərinin olması, hər iki cinsin

peşə sahibləri kimi təsvirlərinin mahiyyəti və nisbəti, cinslərarası əməkdaşlıq, tipik xüsusiyyətlərin yalnız qızlara və ya oğlanlara şamil edilməsi (qayğıkeşlik, cəsurluq) kimi mövzular aid olub. Əlavə olaraq, təhlil zamanı hər iki cinsi ehtiva edən söz və ifadələrin istifadəsi (məsələn, "ata və ana" əvəzinə "valideyn"), qəliblənən düşüncələrin təbliği, adlar çəkilərkən qadın və ya kişi adından başlamaq da nəzərə alınıb. Qadınların vəzifə sahibi olmasına, onların ölkənin tarixinə, sosial, iqtisadi, elmi, mədəni və bədii sərvətlərinə verdiyi töhfələrin vurğulanmasına da xüsusi diqqət yetirilib.

Təhlil nəticəsində məlum olub ki, Azərbaycan dili vəsaitlərində, bir qayda olaraq, qadınlar qayğıkeş ana obrazında təqdim edilirlər. Bunu verilən tapşırıq və mətnlərdə görmək mümkün idi. Eyni qayda ilə IV sinif "Riyaziyyat" dərsliyində səhifə 33 və səhifə 52-də təqdim edilən məsələdə "Aynurun anası keks bişirir", "Gülsümün anası kompot hazırlayır" kimi nümunələrdə ev işlərinin yenidən qadınlara şamil edilməsi halı müşahidə olunur.

Sosial rollarla bağlı bir nümunədə o da məlum olmuşdur ki, məsələn, IV sinif "Azərbaycan dili" dərsliyinin 85-ci səhifəsində təqdim edilən tapşırıqda "Bir kənddə Aygün adlı gözəl qız yaşayırdı. O gözəlliyi ilə fəxr edirdi. Bütün günü gözünü güzgüdən çəkmirdi" cümləsinin işlənməsi qadınların uğurları ilə yox, gözəllikləri ilə fəxr etdiyinə işarədir. Kişilər isə daha çox "olimpiadada yer tutan, dostuna darda kömək edən" (III sinif "Azərbaycan dili" dərsliyi, səh. 20, səh. 12) və s. kimi müsbət obrazlarda təqdim edilmişlər. Beləliklə, bəzi xarakterik xüsusiyyətlərin yalnız bir cinsə aid olması düşüncəsi təbliğ edilir və burada müsbət obrazların balanslı təqdim olunması prinsipi pozulmuşdur.

Geyimlə bağlı stereotiplərdə isə, məsələn, IV sinif "Riyaziyyat" dərsliyində 19, 46, 47, 53, 58, 59, 61, 63, 65, 67, 68, 69, 71, 73 və 94-cü səhifələrdə mövcud olan müxtəlif qadın və kişi obrazlarının geyimlərində kişilərin, əsasən, mavi rəngli geyimlərdə (şəkil 7; şəkil 8) təsvir edildiyi aşkar olunmuşdur. Qadınlar isə əlvan rəngli geyimlərdə təsvir olunur. (Onu da qeyd etmək lazımdır ki, cəmiyyətdə mövcud olan stereotiplərin başqa bir təzahürü olaraq, qadın obrazlar daha çox don geyimində təsvir edilib (şəkil 9). Həmçinin məktəblilərin çimərlikdə olduğunu göstərən illüstrasiyada oğlanlar çimərlik geyimində, qızlar adi geyimlərdə təsvir olunmuşlar (şəkil 10).

Tədqiqatın digər bir nəticəsi isə təhlil olunmuş dərs vəsaitlərində istifadə olunan mətn, tapşırıq və vizual görüntülərdə ciddi peşə stereotiplərinin olması ilə bağlıdır. Belə ki, kitablarda və iş dəftərlərində təsvir olunan qadın və kişi obrazlarının peşələri cəmiyyətdə qəbul olunmuş normalara uyğun şəkildə verilmişdir, yəni qadınlar daha çox dərzi, toxucu, şirniyyatçı, müəllim, çay fabrikinin işçisi kimi, kişilər isə bənna, inşaatçı, sürücü, bağban, usta, idmançı, idman müəllimi rollarında təsvir edilmişlər. Qeyd olunanlara daha çox IV sinif "Riyaziyyat" fən-

ni üçün nəzərdə tutulan vəsaitlərdə rast gəlinmişdir (şəkil 11, 12). Eyni vəziyyət III sinif "Riyaziyyat" və "Azərbaycan dili", IV sinif "Azərbaycan dili" dərs vəsaitlərində də müşahidə edilmişdir.

Beləliklə, yuxarıda qeyd olunan faktlar bu tendensiyanın Azərbaycanın ümumtəhsil məktəblərində tətbiq edilən dərsliklərdə mövcud olduğunu deməyə əsas verir. Aparılan təhlillər dərs vəsaitlərində verilən obrazlar və dərslik müəllifləri arasında gender balansının pozulduğunu göstərir. Belə ki, IV sinif "Azərbaycan dili" dərs vəsaitinin yazılmasında iştirak edən 7 müəllifdən 6-sının qadın, 1-nin isə kişi olduğu göstərilmişdir. III sinif "Azərbaycan dili" iş dəftərinin yazılmasında isə, ümumiyyətlə, kişi müəllif iştirak etməmişdir. Oxşar hal "Riyaziyyat" dərsliklərində də özünü göstərmişdir. III sinif "Riyaziyyat" dərsliyi (2-ci hissə) və iş dəftəri (2-ci hissə) müəlliflərindən 2-si kişi, 4-ü qadındır. Aparılan tədqiqatlarda qadın müəlliflər tərəfindən yazılan dərsliklərdə qadın obrazlarından daha çox istifadə olunduğu müşahidə olunur. Yuxarıda qeyd olunan nəticələrə əsasən demək mümkündür ki, Azərbaycan dərsliklərində qadın müəlliflərin çoxluq təşkil etdiyi kitablarda da kişi obrazlarının sayı daha çoxdur. Bunun səbəbi qadın müəlliflərin də uşaqlıqdan mövcud olan gender normalarına uyğun tərbiyə olunması və dərsliklərdə gender problemlərinə dair materialların yazılmasında kifayət qədər təcrübəyə malik olmaması ola bilər. E.Mollayeva yazır: "Orta məktəb dərsliklərinin gender ekspertizasından keçirilməsi zamanı aydın oldu ki, burada da problemlər mövcuddur. I sinifdə tədris olunan "Həyat bilgisi" dərsliyinin seçilməsi zamanı aşağıdakı üstünlüklər də nəzərə alınmışdır:

1. Dərslik ibtidai sinif şagirdlərinin sosiallaşmasına güclü təsir göstərir.

2. Dərslik gender stereotipləri baxımından zəngin material verir" [Mollayeva E., 2021].

"Təbiət" dərsliyində isə gender baxımından əks tendensiya aşkar edilib; 11 kitab müəllifinin sadəcə 1-i qadındır. Dərsliklərdəki obrazların təhlili zamanı aydın olur ki, verilən tapşırıqlarda, mətnlərdə kişi obrazlar çoxluq təşkil edir, hətta şeirlərin bir çoxunun müəllifi də kişidir. E.Mollayeva yazır: "Dərsliklərin təhlili zamanı burada verilmiş mətnlərin həm kəmiyyət, həm də keyfiyyət təhlili zəruridir ki, bu zaman elmi ədəbiyyatda təsvir olunan gender stereotiplərinin təsnifatı, qadın və kişi obrazlarına müraciət tezliyinin hesablanması, mövzuların gender baxımından nəzərdən keçirilməsi diqqət mərkəzində saxlanılır " [Mollayeva E., 2021].

Aparılan araşdırmalar təhlil edilən bütün dərsliklərdə müxtəlif gender stereotiplərinin mövcud olduğunu göstərir. Araşdırmalar göstərir ki, Azərbaycanın təhsil sistemində tətbiq olunan dərsliklərdə bir sıra müsbət hallarla yanaşı, müxtəlif gender stereotiplərini təşviq edən tapşırıq və şəkillərdə gender bərarbərsizliyinin müşahidə edildiyi məqamlar mövcuddur. H.Nəzirova, A.Məhərrəmova və

Z.Əmiraslanova belə fikirdədirlər: "Aparılan təhlillər dərs vəsaitlərində verilən obrazlar və dərslik müəllifləri arasında gender balansının pozulduğunu göstərir" [N.Nəzirova, A.Məhərrəmova, Z.Əmiraslanova, 2015]. X sinif üçün "Ədəbiyyat" dərsliyinin yazılmasında iştirak edən 3 nəfər müəllifdən 2-sı kişi, 1-i isə qadındır. Həmin sinfin "Azərbaycan dili" dərsliyində isə əksinədir. Burada 3 müəllifdən 2-si qadın, 1-i isə kişidir.

X sinif "Azərbaycan tarixi" dərsliyinin də müəllif sayı baxımından gender balansının pozulması ilə bağlı təhlilini apardıq. Təhlil zamanı məlum oldu ki, burada 9 həmmüəllifin hamısı kişidir. Bu kitabın yazılmasında heç bir qadın müəllifi iştirak etməyib. X sinifdə tədris olunan "Ümumi tarix" dərsliyinə baxsaq görərik ki, müəlliflərdən 6-sı da kişidir. Burada da qadın müəllifə rast gəlinmir. Həmin sinfin digər dərsliklərinə də nəzər yetirək: X sinif "Coğrafiya" dərsliyinin müəlliflərindən 3 nəfəri kişi, 1 nəfəri isə qadındır. XI sinifdə tədris olunan "Ümumi tarix" dərsliyində də vəziyyət eynidir. Burada da qadın müəllif yoxdur, müəlliflərin beşi də kişidir. Həmin sinifdə tədris olunan "Azərbaycan tarixi" dərsliyinin isə müəlliflərindən 8 nəfəri kişi və bir nəfəri qadındır.

X siniflər üçün hazırlanmış "Azərbaycan dili" və "Ədəbiyyat" dərsliklərini də nəzərdən keçirdik. "Azərbaycan dili" dərsliyinin yalnız bir müəllifi vardır ki, o da qadındır. "Ədəbiyyat" fənni üzrə isə dörd müəllifdən yalnız biri qadındır

XI sinfin "Coğrafiya" dərsliyində 3 nəfər müəllifdən 2-si qadın, 1-i isə kişidir. XI sinifdə tədris olunan humanitar fənlər üzrə dərsliklərdə də həmmüəlliflərin sayında gender balansının pozulduğunu müşahidə etdik. Həmin siniflərdə tədris olunan texniki fənlər üzrə dərsliklərdə də vəziyyət eynidir. Burada da həmmüəlliflərin sayında gender balansı pozulmuşdur. X sinifdə tədris olunan "Riyaziyyat" dərsliyinə nəzər yetirək. Kitabı ərsəyə gətirən 3 müəllifdən 2-si kişi, biri isə qadındır. Eyni fənn üzrə XI sinifdə isə müəlliflərdən 2-si kişi, biri qadındır. Hər iki sinifdə tədris olunan fənn üzrə dərslik müəllifləri eyni adamlardır.

X sinifdə tədris olunan "Kimya" dərsliyinə fikir verək. Burada da vəziyyət eynidir. Üç müəllifin üçü də kişidir. XI sinif üçün "Kimya" dərsliyinə baxaq. Burada üç nəfər müəllifdən 2-si kişi, 1-i isə qadındır X sinifdə tədris olunan "Fizika" dərsliyinin müəlliflərindən üçü də kişidir. XI sinifdə tədris olunan "Fizika" dərsliyində də eyni vəziyyətdir.

X sinfin "İnformatika" dərsliyində üç müəllifdən 2-si kişi, 1-i isə qadındır. XI sinifdə də həmin müəlliflərdir.

Ümumilikdə, X və XI siniflərdə tədris olunan istər humanitar, istərsə də texniki fənlər üzrə əksər dərslik komplektlərinin təhlil edildiyi tədqiqatın nəticələri onu göstərir ki, nəzərdən keçirdiyimiz tədris materiallarının hər birində dərslik müəllifləri arasında say baxımından gender balansı pozulmuşdur. Bu dərsliklərdə peşə ilə bağlı stereotiplərə baxaq. XI sinif "Azərbaycan dili" dərsliyində (müəl-

liflər T.Hacıyev, Bektaşi S., 2018) "Çempion" başlığı altında verilmiş mətndəki şəkillərdə sağlam və paralimpiya (sağlamlıq imkanları məhdud olan), kişi cinsindən olan idmançıların təsviri verilmişdir. Halbuki bu idman növləri ilə məşğul olan qadınlarımız da vardır.

Sosial rollarla bağlı bir məqam da var: dərsliklərdə işlədilən cümlələrdə kişilər uğurlu, cəsur və ictimai həyatda aktiv iştirakçı kimi təsvir edildiyi halda, qadın obrazlarının daha çox gözəlliyə önəm verən, passiv və hər hansı kişi obrazının qohumu və ya tanışı kimi təqdim edilməsidir. Həmçinin qeyd etmək vacibdir ki, bir çox hallarda qadın personajların adı yoxdur və onlar hekayədə daha çox "xanım" və "gəlin" deyə təqdim olunurlar. Dastanlarımızda olan döyüş səhnələrinin təsvir olunduğu rəsmlərdə də yalnız kişilər təsvir olunmuşdur. Bunu biz XI sinif "Azərbaycan dili" dərsliyində (müəlliflər T.Hacıyev, Bektaşi S., 2018) "Salur Qazanın evinin yağmalanması boyu" ilə bağlı çəkilmiş 2 illüstrasiyada da görə bilərik.

S.Mustafayeva yazır: "X sinif üçün Azərbaycan cəmiyyətində XIX–XX əsrin əvvəllərində baş verən tarixi hadisələri özündə ehtiva edən "Azərbaycan tarixi" dərsliyinə gəldikdə, bu nəşr də bir qayda olaraq, yalnız kişilərin durduğu ənənəvi "kişi" tarixinə dair bir örnəkdir. Azsaylı qadın obrazlarının meydana çıxdığı yerlərdə isə, müəlliflərin fikrinə görə, onlar cəmiyyətin qadınlar üçün nəzərdə tutduğu hüdudları aşmış olurlar – cəngavər qadın obrazı həm də belə bir rolun qadın üçün səciyyəvi olmadığını nümayiş etdirir. Tarixdə kişinin dominant rolu haqqında stereotip təsəvvür bütün ictimai, siyasi, mədəni və digər sahələri onun adı ilə bağlayır. Qadının payına isə yalnız ev təsərrüfatı sahəsi düşür ki, müəlliflər onun təsviri üçün nə vaxt, nə də yer tapa bilmirlər. Dərsliyin «Elm və mədəniyyət» bölməsindəki kişi və qadın obrazlarını müqayisə etsək, aşağıdakı görüntü yaranır: kişi obrazları mətnlərdə 486, şəkillərdə 38 dəfə, qadın obrazları isə mətnlərdə 11, şəkillərdə 4 dəfə təqdim edilib. Faiz nisbətində bu, mətnlərdə 90% –2%, şəkillərdə isə 90% və 10% təşkil edir"[1].

Doğrudan da, hətta sovetlər dövründə də dərsliklərin əksəriyyətində müsbət qadın obrazı dedikdə ailəsinə sədaqətli, ənənələrə bağlı qadınlar tərənnüm edilirdi, onlara qarşı hörmət hər zaman xüsusi vurğulanırdı. Tədris sistemində mütəmadi olaraq islahatlar aparılmasına baxmayaraq, qızlarn yerinin əsasən, ailədə olması ideyası təlqin edilirdi.

Artıq bu gün insanlar başa düşürlər ki, gender probleminin həllinə yalnız nəsillərin dəyişməsi yardımçı ola bilər və onu təhsil institutlarında, həm də şəxsiyyətin sosiallaşmasının ilkin mərhələlərində ortaya qoymaq daha məqsədəuyğun olardı. Məsələn, nağarada ifa etmək arzusunda olan azərbaycanlı qıza onun ailəsinin, xüsusən də atasının, gələcək nişanlısının bunu biləcəyi halda, həmin

[1] http://regionplus.az/az/articles/view/5038

qızla evlənmək istəməyəcəyi fikrini aşılamağa can atmasını izah etmək çətindir. Azərbaycan cəmiyyətinin sabit stereotiplərindən biri nağarada yalnız kişilərin ifa etməli olduqları musiqi alətləri sırasına aid edilməsidir. Azərbaycanda bal rəqslərinin yalnız qadınlarla eyniləşdirildiyini, rəqqas kişilərin isə cəmiyyət tərəfindən qeyri-ənənəvi oriyentasiyaya malik insanlar kimi qəbul edilməsi də anlaşılmazdır. Niyə qızları çəhrayı, oğlanları isə mavi rəngdə geyindirirlər; niyə oğlanlara aşılayırlar ki, onlara ağlamaq olmaz, qızlara isə olar; niyə məktəblərdə xarratlığı yalnız oğlanlara, tikişi isə yalnız qızlara öyrədirlər, halbuki ev işləri ilə məşğul olmalı olan qadınlar çox vaxt çəkicə, baltaya da «əl atmalı» olurlar…Bir şey aydındır: cəmiyyətdə kişi ilə qadının rolu barədə bu oturuşmuş təsəvvürlərin kökləri erkən uşaqlıq dövrlərinə gedib çıxır.

Sözsüz ki, kişi tərəfkeşliyi ilə müşayiət olunan dərsliklər qız və oğlanların identifikasiyası anlamına təsirsiz ötüşməmişdir. Bu kitablar, nəinki ənənəviliyi qoruyur, hətta müasir sosial həyatda qadınların rolunu məhdudlaşdırmağa da xidmət edir. Dərsliklərdəki ideal qadın obrazı belə təsvir edilir: ideal qadın o qadındır ki, yaxşı həyat yoldaşıdır, yaxşı anadır və s. Erkən yaşlarından qızlarda və oğlanlarda formalaşdırılan bu fikirlər, sonda onların gender rollarına bilavasitə təsir edir və onların sosial-siyasi inkişafını ləngidir. Hətta ibtidai sinif şagirdlərinə sual edildikdə ki, qadınlar və ya kişilər hansı işlərdə işləyə bilərlər, bütün prestijli, yüksək ödənişli işləri kişilərə, monoton, az perspektivli, aşağı ödənişli işləri isə qadınlara şamil edirlər. Tədris prosesində gender stereotipləşməsinə uyğun ismarıc alan şagirdlər sonda çox ziddiyyətli fikirlərə düşürlər və ixtisas seçimi zamanı çətinliklərlə üzləşirlər. Bir tərəfdən demokratik cəmiyyətdə gender bərabərliyinin mövcudluğu barədə səslənən hüquqi, digər tərəfdən cəmiyyətin əsl qadın barəsində təbliğ edilən faktiki fikirlər onların düşüncələrini qarışdırır. Qızlar anlayırlar ki, ən yaxşı oxuyan qız da heç vaxt öz gender rolunu unutmamalı, feminliyindən vaz keçməməlidir. Ümumiyyətlə, qızlara lap uşaqlıqdan gah açıq şəkildə, gah da eyhamlarla xoşbəxtliyin ekvivalentinin uğurlu evlilik olması fikri təlqin edilir. Aparılan təhlillər, dərs vəsaitlərində verilən obrazlar və dərslik müəllifləri arasında gender balansının pozulduğunu göstərir. Aparılan tədqiqatlar zamanı qadın müəlliflər tərəfindən yazılan dərsliklərdə qadın obrazlarının daha çox təmsil olunduğu müşahidə olunmuşdur.

K.Ağayeva yazır: "İbtidai siniflərdən başlamış dərsliklərə nəzər salarkən oxu kitablarında eyni səhnənin şahidi olursan: dərsliklərdə qadınlara aid yazılara az yer verilir. Oxu kitablarında Azərbaycan tarixində kişi qəhrəmanlar haqqında kifayət qədər yazılar verilir. Qadınlardan ya çox az bəhs edilir, ya bəhs edilərkən burada kişi dominantlığı müşahidə edilir, ya da ən yaxşı halda, qadınlar kişilərin köməkçisi qismində təqdim edilirlər" [Ağayeva K., 2014].

Tədqiqatlar göstərir ki, qadınlar dünya dövlətlərinin əsas dərsliklərində də

stereotip rollarda təsvir edilirlər. Haiti orta məktəblərində şagirdlərə öyrədilir ki, atalar "ofisdə" işlədiyi halda, analar evdə "uşaqların qayğısına qalır və yemək hazırlayırlar. Pakistanda bir şəkilli kitabda bütün siyasətçilər, güclü insanlar və nüfuzlu şəxsiyyətlər kimi ancaq kişilər göstərilib. Türkiyənin bir cizgi filmində oğlan uşağı həkim olmaq xəyalı ilə yaşayır. Qız uşağı isə özünü ağ gəlinlik paltarında təsəvvür edir. Siyahını davam etdirmək olar. Bu siyahının coğrafi sərhədləri yoxdur. Gender fərqlərinə bütün orta məktəb dərsliklərində rast gəlmək mümkündür və mütəxəssislər deyirlər ki, bu, bütün qitələr üçün keçərlidir.

BMT-nin təhsil şöbəsi UNESCO təəccüblü bir xəbərdarlıq etmişdi. UNESCO-nun 2016-cı il Qlobal Təhsil Monitorinqinin direktoru olmuş, Olbani Universitetindən Aaron Benavot məruzəsində deyir: "Dərsliklərdə təqdim olunan materiallarda cinslərə münasibətdə fərqlər o qədər çoxdur ki, bu, qızların təhsilini davam etdirib-etdirməmək məsələsinə təsirsiz ötüşmür,  onların karyera və həyat gözləntilərini məhdudlaşdırır. Bununla yanaşı, gender bərabərliyi yolunda "gizli maneə" rolunu oynayır" [Perasso V., 2017].

İstər yazı mövzuları, xarakterlərin adları, müraciətlər, sitatlar olsun, istərsə də başqa meyarlar – sorğular göstərir ki, qadınlar dərslik və tədris proqramlarında çox az təmsil olunurlar. Ekspertlər isə bu problemin üç dəfə daha böyük olduğunu göstərirlər. Buna ən bariz nümunə gender əsaslı yanaşmadır. Bundan başqa, birincisi, qadınlar tez-tez, bir növ kölgədə qalırlar, onların tarixdəki, cəmiyyətdəki rolu nəzərə çarpmır. İkincisi, gündəlik həyatda daha çox kişi obrazları qabardılır. Üçüncüsü, ənənəvi stereotiplərdir ki, bunlar evdə və evdən kənarda kişi və qadının gördüyü işləri müəyyənləşdirir. Buraya sosial tələblər və hər cins üçün müəyyən olunmuş xüsusiyyətlər də daxildir.

Bununla belə, ötən onillik ərzində bu sahədə müəyyən dərəcədə inkişaf olmuşdur. UNESCO-nun məruzəsində göstərilir ki, dünya üzrə bütün dərsliklərdə gender bərabərsizliyi ilə bağlı mövzulara artıq daha çox yer verilir. Qadın hüquqları və cinsi ayrı-seçkilik problemlərinə daha çox Avropa, Şimali Amerika və Afrikanın Böyük Səhradan cənubda yerləşən ölkələrində rast gəlinir.

Bəzi ölkələr isə dəyişikliklərə münasibətdə liderlik edirlər. Cinslərə qarşı ümumi münasibətinə görə ilk yerdə İsveçrə dayanır. Milli tədris proqramındakı bəzi dərsliklər gender münasibətləri cəhətindən  neytral obrazlar və əvəzetmələrlə zənginləşdirilib. Eləcə də gündəlik həyat qayğıları əks cinslər arasında bərabər bölüşdürülür.

Honkonqda aparılan bir araşdırma göstərir ki, tədris dilinin ingilis dili olduğu məktəblərin  dərsliklərində kişi və qadın obrazları bərabər təqdim olunur. İordaniya, Fələstin, Vyetnam, Hindistan, Pakistan, Kosta Rika, Argentina və Çində də bu sahədə inkişaf müşahidə edilir. Təəssüf ki, milli səviyyədə kitabları ətraflı nəzərdən keçirmək vaxt aparan və bahalı prosesdir. Ona görə də bir çox ölkələrdə

bu, ixtisara düşür.

F.Dünyamalıyev yazır: "Dövlətin təhsil siyasəti birbaşa gənclərin fasiləsiz təhsilinə yönəlib. Bu sahədə qızlar çoxluq təşkil edir. Məktəb dərsliklərində də qadınların inkişafına mane olan stereotiplərin olmamasına xüsusi diqqət edilir. Müxtəlif QHT-lərdə Azərbaycanın bölgələrində qız uşaqlarının təhsil alması və karyera inkişafı ilə əlaqədar maarifləndirmə tədbirləri həyata keçirirlər" [Dünyamalıyev F., 2019].

## Nəticə / Conclucion

Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlirik ki, təhsil müəsisələrində gender probleminə iki nöqteyi-nəzərdən yanaşmaq lazımdır. *Birincisi,* təhsil sisteminin özündə, pedaqoji metodologiyada gender bərabərliyinə nail olmaq, *ikincisi* isə təhsil müəssisələrində gender əsaslı təhsilin tətbiqidir. Ölkəmizdə və xaricdə bir çox araşdırmalarda ənənəvi təhsil sisteminin, metodikanın müasir tələblərlə ayaqlaşa bilmədiyi irəli sürülür. Belə ki, təhsil müəssisələrində ənənəvi gender normalarına, sosial və mədəni stereotiplərə üstünlük verilir  və dəstəklənir. Nəticədə gender şüuru formalaşdırılır. Beləliklə, bu müəssisələrdə "əsl kişi" və "əsl qadın" xarakteristikalarına əsaslanan gender şüurunun yaranması baş verir. Bu isə gender bərabərliyinin aradan qaldırılmasının qarşısını alır.

Kurikulum proqramının və dərsliklərin tətbiqində müəllimlərin mühüm rolu ilə bağlı aşağıdakı tövsiyələr təqdim olunur:

– Gender ayrı-seçkiliyindən xəbərdar olun, bunu məktəb və sinif təcrübələrində davam etdirməkdən çəkinin.

– Oğlanların və qızların öyrənmə və nailiyyət əldə etmək üçün bərabər potensiala malik olduqlarına inanın. Nəticə etibarı ilə, oğlan və qızları eyni dərəcədə həvəsləndirin və onları tapşırıqları yerinə yetirməyə təşviq edin, eyni zamanda onlara öyrənmə problemləri və çətinliklərinin öhdəsindən gəlmək üçün eyni dərəcədə dəstək olun.

– Oğlan və qızlardan bir-birini əvəz edə bilən rollar kontekstində onların birlikdə oynamalarını və işləmələrini xahiş edin. Həm oğlanların, həm də qızların güclü və zəif tərəflərini, istedadlarını və maraqlarını aşkara çıxarmaqda onlara dəstək olun, onları xəbərdar edin və təhsil, həyat və iş üçün bacarıqlarının inkişaf etdirilməsi üçün geniş bərabər imkanlar təqdim edin.

– Gender bərabərliyini təşviq etməkdə uğur qazanan məktəblərdən və həmkarlarınızdan öyrənin. İnternet də daxil olmaqla, paylaşma və yayma proseslərində iştirak edin.

– Müəllim və məktəb şəbəkələri vasitəsilə məktəbdə və cəmiyyət səviyyəsində gender bərabərliyini təşviq edən təcrübə icmaları yaradın və onlara dəstək olun.

**Məqalənin aktuallığı.** Cəmiyyətdə, təhsil müəsisələrində ortaya çıxan gender problemləri həmişə aktualdır. Bu problemlər həmişə müəyyən düzgün olmayan münasibətlərin formalaşmasında baza rolunu oynayır. Təhsil müəssisələrində ənənəvi gender normalarına, sosial və mədəni stereotiplərə üstünlük verilməsi və nəticədə gender şüurunun formalaşdırılması problemi aktual olaraq qalır.

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, müasir dövrün tələbləri ilə ayaqlaşan təhsil prinsiplərinin tətbiqi zamanı Azərbaycanın ümumtəhsil məktəblərində dərsliklərin gender bərabərliyi tələblərinə cavab verməsinin zəruriliyi problemi qarşıya qoyulur. Gender problemlərini həll etmək və gender bərabərliyini təbliğ etmək üçün dərslik tərtibatçılarını, müəllimləri dərsliklərin gender ekspertizasından keçirilməsi probleminin həllinə cəlb etməyin zəruriliyi qeyd olunur.

**Məqalənin praktik əhəmiyyəti.** Dərsliklərdə özünü göstərən gender disbalansı və qəlibləşmiş gender stereotiplərini nəzərə çatdıraraq, yetişməkdə olan gənc nəsil üçün gender bərabərliyinin ardıcıl və səmərəli şəkildə təbliğatını aparmaq, əlverişli metodları, üsul və qaydaları tətbiq edərək, cinslərin sosial rollarının düzgün təbliğini təmin etməkdir. Məqalədən ibtidai sinif müəllimləri, orta məktəb müəllimləri gender disbalansını aradan götürmək üçün öz fəaliyyətlərində istifadə edə bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Ağayeva K. (2014). Təhsildə gender problemləri. Ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş Beynəlxalq Elmi Konfransın materialları, Bakı, 2 dekabr, s.15-19.
2. Dünyamalıyev F. (2019). Azərbaycanda gənclərin sosial-iqtisadi problemlərində gender fərqi. Proceedings International Confrence. Gender Problems and Modern Azerbaijan, 27 November, p.31-33.
3. Əliyev R., Abdurazaqov R., Murquzov M. (2017). Fizika. (dərslik, 10-cu sinif). Bakı, 208 s.
4. Əliyev S., Həsənov B., Mustafayeva A. (2017). Ədəbiyyat. (dərslik, 10-cu sinif). Bakı, 208 s.
5. Əliyev T., Ağalarov P., Quliyev N., Qasımov E., Babayev F., Hüseynov E., Əsədov K., Məmmədov R. (2017). Azərbaycan tarixi. (dərslik, 10-cu sinif). Bakı, "Şərq-Qərb", 200 s.
6. Hacıyev T., Bektaşi S. (2018). Azərbaycan dili. (dərslik, 11-ci sinif). Bakı, "Şərq-Qərb", 192 s.
7. Hacıyev T., S. Bektaşi, Y. Hüseynova. (2017). Azərbaycan dili (dərslik, 10-cu sinif). Bakı, "Şərq-Qərb", 208 s.

8. Həbibbəyli İ., S. Əliyev, B. Həsənov, A.Mustafayeva. (2018). Ədəbiyyat. (dərslik, 11-ci sinif). Bakı, 212 s.
9. Hətəmov R., Ağalarov P., Quliyev N., Cabbarov H., Hüseynov E. (2018). Ümumi tarix. (dərslik, 11-ci sinif). Bakı, "Şərq-Qərb", 144 s .
10. Hətəmov R., Hüseynov A., Hüseynov E., Qasımov E., Babayev F., Cabbarov H., Quliyev N., Ağalarov P., Bəhrəmova S. (2018). Azərbaycan tarixi. (dərslik, 11-ci sinif). Bakı, "Şərq-Qərb", 208 s.
11. Hüseynov E., Cabbarov H., Məmmədov K., Quliyev N., Ağalarov P. (2022). Ümumi tarix. (dərslik,10-cu sinif). Bakı, Qərb Açıq Səhmdar Cəmiyyəti, 156 s.
12. İbrahimova R., E. Kazımzadə. (2021). Dərslik siyasətində gender ekspertizasının tətbiqi. Bakı, BDU-nun nəşriyyatı, 28 .
13. Qəhrəmanova N., M. Kərimov, İ. Hüseynov. (2022). Riyaziyyat. (dərslik,10-cu sinif). Bakı, "Radius", 324 s.
14. Qəhrəmanova N., M. Kərimov, İ. Hüseynov. (2022). Riyaziyyat. (dərslik, 11-ci sinif). Bakı, "Radius", 320 s.
15. Qəribov Y., O . Alxasov, Ş .Hüseynli və b. (2018). Coğrafiya. (dərslik, 10-cu sinif). Bakı, 208 s .
16. Lətifov İ., Mustafa Ş., Camalova R. (2018). Kimya. (dərslik, 10-cu sinif). Bakı, 208 s.
17. Lətifov İ., Ş.Mustafa, R.Camalova. (2018). Kimya. (dərslik, 11-ci sinif). Bakı, 208 s.
18. Mahmudzadə R., Sadıqov İ., İsayeva N. (2018). İnformatika. (dərslik, 11-ci sinif). Bakı, 208 s.
19. Mahmudzadə R., Sadıqov İ., İsayeva N. (2017). İnformatika. (dərslik, 10-cu sinif). Bakı, 208 s.
20. Mollayeva E. (2021). Pedaqoji kadr hazırlığının gender aspektləri. Bakı, "Elm və təhsil", 430 s.
21. Mustafayeva S. (2007). http://regionplus.az/az/articles/view/5038
22. Nəzirova N., Məhərrəmova A., Əmiraslanova Z. (2022). Dərs vəsaitlərində gender bərabərliyi: Azərbaycan nümunəsi. Bakı, "Azərbaycan məktəbi", № 4, s. 25-33.
23. Perasso V. (2017). 100 Qadın: "Biz gələcəyin qızlarına keçmişin kitabları ilə təhsil verə bilmərik". https:// www.bbc.com/azeri/international-41566346.
24. Şərifov Q., Abdurazaqov R., Əliyev R. (2018). Fizika. (dərslik, 11-ci sinif). Bakı, 208 s.
25. Seyfullayeva N., İmrani Z., Şabanova Y. (2018). Coğrafiya. (dərslik, 11-ci sinif). Bakı, 208 s.